# TÜRKİYƏ-AZƏRBAYCAN: Əbədi və sarsılmaz dostluğun, birliyin daha bir təntənəsi

Ötən həftə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qardaş Türkiyə Respublikasına rəsmi səfəri olmuşdur. Bu səfər ölkə başçısının oktyabr ayının 9-da Azərbaycan Respublikasının yenidən Prezidenti seçildikdən sonra xarici ölkəyə ilk səfəri idi. Bu missiya artıq hər iki ölkədə bir ənənəyə çevrilmişdir.

İlham Əliyevin və onun xanımı Mehriban Əliyevanın Türkiyə Respublikası Prezidentinin iqamətgahında-Çankaya köşkündə çox yüksək səviyyədə qarşılanma mərasimi olmuşdur. Burada Türkiyə Respublikasının Prezidenti Abdulla Gül və xanımı Hayrünnisə tərəfindən böyük ehtiram və hörmətlə qarşılanan ölkə başçımız və xanımı ilk öncə Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəyə-Anıtqəbirə gəlmişlər.

Dövlət başçısı böyük Atatürkün məzarını ehtiramla yad etmiş, Anıtqəbrin muzeyi ilə tanış olmuşdur. Sonra Prezidentlərin və onların xanımlarının birgə görüşləri keçirilmişdir.

Noyabrın 12-də Azərbaycan və Türkiyə Prezidentlərinin təltif olunması mərasimi təşkil olunmuşdur. Mərasimdə İlham Əliyevin Türkiyənin və Abdulla Gülün isə Azərbaycanın ən ali mükafatları ilə təltif olunması barədə sərəncamlar oxunmuşdur. Əvvəlcə Türkiyə Respublikasının Prezidenti Abdulla Gül ölkənin ən yüksək ordeni olan «Dövlət nişanı»nı İlham Əliyevə, sonra dövlətimizin başçısı isə «Heydər Əliyev» ordenini Abdulla Gülə təqdim etmişdir. Mərasim Türkiyə və Azərbaycanın bir daha əbədi və sarsılmaz dostluğunun bariz nümunəsinə çevrilmişdir. Hər iki prezident yüksək mükafatların təqdimatından sonra nitq söyləmişdir.

Prezidentlərin həm mükafatların təqdimatı mərasimindəki, həm də bundan sonrakı tədbirlərdəki çıxışlarında Türkiyə-Azərbaycan dostluğunun tarixi köklərindən söhbət açılmış, böyük dövlət xadimi Heydər Əliyevin bir millət iki dövlət müdrik kəlamı dönə-dönə vurğulanmışdır. Çıxışlar zamanı qeyd olunmuşdur ki, sovetlər birliyi zamanında 70 il Azərbaycan və Türkiyə arasında sərhədlər bağlanaraq eyni kökdən olan, adət ənənələri, dini əqidələri bir olan iki xalqın bir-birinə gəliş-gedişi yasaq olunsa da bu illər ərzində ürəklərdəki isti bağlılıq soyumamış, sarsılmaz dostluq gizli-gizli olsa da yaşanmışdır. 20 il əvvəl Azərbaycana səfər edən rəhmətlik Prezident Turqut Özal Bakı Universitetində çıxış edərkən bu məsələyə obrazlı və çox yerində olan bir münasibət bildirmişdir: **«Acı və həsrət dolu illəri geridə qoyduq, bu yeni dövr birlik və bərabərlik içində irəliyə doğru böyük addımlar atmaq üçün tarixi bir fürsət təşkil etməkdədir».** Ötən 20 il ərzində bu fürsət artıq təşkil edilmişdir. Hər iki dövlətin prezidentləri prezident seçilərindən sonra ilk xarici səfərlərini dostluq və birliyin rəmzi ollaraq bir-birinə etmişdir. Türkiyə Prezidenti Abdulla Gül isə bu birliyə, bu dostluğa belə qiymət vermişdir: **«Azərbaycan hamımızın vətənidir, tarix boyunca millətimizin könlündə çox müstəsna bir yerə sahib olmuşdur. Qəlblərimiz azərbaycanlı qardaşlarımızla hər zaman birlikdə döyünür. Sevinciniz sevincimizdir, kədəriniz kədərimizdir, eyni mahnılarla təsirlənir, eyni şairlərin şeirləri ilə həyacanlanırıq. Füzulini oxuyarkən siz necə dərin bir məna verirsinizsə, biz də eyni şəkildə anlayırıq».** Qardaş ölkənin Prezidenti çıxışında hətta Azərbaycan şairi Bəxtiyar Vahabzadənin vaxtilə yazdığı:

**Bir ananın iki oğlu,**
**Bir ağacın iki qolu,**
**O da ulu, bu da ulu**
**Azərbaycan, Türkiyə...**

çox mənalı misralarını söyləyərək əlaqələrimizin bu gününü, sabahını ifadə etmişdir.

Görüşlər zamanı könüldə, fikirdə və işdəki bu ortaqlığın naxış-naxış toxunduğu vurğulanmış, Azərbaycanla Türkiyənin sarsılmaz və dönməz birliyi təkrar-təkrar vurğulanmışdır. Abdulla Gülün və İlham Əliyevin mükafatların təqdimatı mərasmindəki çıxışlarını «Yaşasın Azərbaycan! Yaşasın Türkiyə! və Yaşasın Türkiyə! Yaşasın Azərbaycan! şüarları ilə bitirmələri Türkiyə mətbuatında, televiziya kanallarında geniş məqalə və informasiyalarla işıqlandırılmışdır. Bu sarsılmaz dostluq və birlik nəinki prezidentlərin görüşləri zamanı, həm Baş nazir Rəcəb Tayyib Ərdoğanla, həm Türkiyə- Azərbaycan yüksək səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclası prosesində və digər görüşlər zamanı dönədönə vurğulanmışdır. Cənab Prezident İlham Əliyev çıxışında qeyd etmişdir: **«...Keçmişə nəzər salırıq. Görürük ki, Türkiyə Azərbaycan əlaqələri dünyada nadir əlaqələrdir. Bizi tarix, etnik köklər, ortaq mədəniyyət, eyni zamanda siyasi, iqtisadi maraqlarımız birləşdirir. Dünyada bir-birinə yaxın olan xalqlar kifayət qədər çoxdur. Heç də hər zaman bu xalqlar bir-biri ilə Azərbaycan və Türkiyə qədər yaxın olmamışlar».** Həqiqət də budur ki, tarixi vərəqləyərkən bu birliyin, müttəfiqliyin əsasında hər iki xalqın qədim köklərə bağlılığının şahidi oluruq. Hələ çox-çox qədimlərə nəzər salmasaq da təkcə ötən əsrin 18-20-ci, 90-cı illərini və sonrakı dövrləri xatırlasaq kifayətdir.

Möhtərəm Prezident İlham Əliyev Türkiyə Respublikasına 3 günlük səfəri çərçivəsində Azərbaycan və Türkiyə arasında həm siyasi, həm iqtisadi, həm ticarət, mədəniyyət, həm də hərbi sahədə indiyədək görülən və bundan sonra görüləcək işlərə xüsusi diqqət yetirilmiş, Azərbaycan, Dağlıq Qarabağ-Ermənistan konfliktinin həlli yolları bir daha nəzərdən keçirilmişdir. Qeyd edilmişdir ki, Dağlıq Qarabağ probleminin həlli Azərbaycan üçün hansı səviyyədədirsə Türkiyə üçün də eyni səviyyədədir. Bu məsələdə bir daha ATƏT-in Minsk qrupunun üzərinə böyük məsuliyyət düşdüyü, eyni zamanda ABŞ-ın Rusiyanın, Fransanın bu işi daha dərindən, ciddi şəkildə davamlı surətdə diqqətdə saxlamalarının vacibliyi vurğulanmışdır.

Növbəti 5 il ərzində Azərbaycan Türkiyə arasında ticarət əlaqələri fərqli surətdə, yəni 3,5 dəfədən çox artırılaraq 4,2 milyard dollardan 15 milyard dollara çatdırılacaqdır.

Konkret nəticəyə gəlsək Prezidentin Türkiyə səfərinin böyük əhəmiyyəti onunla bağlıdır ki, gələcək illərdə Azərbaycan—Türkiyə əlaqələrinin inkişaf dinamikası bütün sahələr üzrə təmin ediləcəkdir.

## Doğma ölkəmizdə

### 10 ay ərzində ölkədə 36,1 milyon ton neft hasil edilib

Ölkənin sənaye sahələrində 2013-cü ilin yanvar-oktyabr aylarında 28 milyard manatlıq məhsul istehsal olunub və xidmətlər göstərilib.

Sənayenin qeyri-neft sahələrində 2, neft sektorunda isə 1 faizlik artım müşahidə olunub. İstehsalın dörddə üç hissəsi mədənçıxarma, 19,9 faizi emal, 5 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,7 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı bölmələrində həyata keçirilib. 10 ay ərzində 36,1 milyon ton neft, 14,6 milyard kubmetr əmtəəlik təbii qaz hasil edilib. Qeyri-neft bölməsinin məhsullarından qida, içki, dəri və dəri məmulatlarının, ayaqqabıların, poliqrafiya, kimya, əczaçılıq, tikinti materiallarının, metallurgiya, maşın və avadanlıqların, elektrik avadanlıqlarının, avtomobil və qoşquların, digər nəqliyyat vasitələrinin və s. məhsulların istehsalında daha çox artım əldə edilib.

### ABŞ Konqresmenləri Azərbaycan diplomatik Akademiyasında

Bu günlərdə ABŞ-ın Arizona Ştatının konqresmenlərindən ibarət nümayəndə heyəti Azərbaycan Diplomatik Akademiyasında olmuşdur. Görüş zamanı qonaqlara Azərbaycan Diplomatik Akademiyasının tarixi, fəaliyyəti, strukturu və gələcək planları barədə məlumat verilmişdir.

Konqresmenlər Azərbaycan təhsil sistemindəki yeniliklərlə maraqlanmış, eyni zamanda onlar tələbə həyatı, tələbələrin asudə vaxtlarının təşkili, akademiyanın professor və müəllim heyəti barədə məlumatlandırılmışlar.

### Bakıda Azərbaycan—İtaliya biznes forumu keçirilmişdir

Azərbaycanda İxracın və İnvestisiyaların Təşkili Forumunun (AZPROMO) təşkilatçılığı ilə keçirilən biznes forumunda Azərbaycan və İtaliya tərəfindən sənaye, tikinti, konsaltinq, maliyyə, İKT, energetika, infrastruktur, memarlıq, dizayn, hidroenergetika və digər sahələrdə fəaliyyət göstərən 300-ə yaxın şirkətin nümayəndəsi iştirak etmişdir.

Çıxışlar zamanı hər iki ölkənin əlaqələrinin daha da genişlənməsində, dostluq zəminində qurulan Azərbaycan-İtaliya münasibətlərinin uğurlu inkişafında, dərinləşməsində forumun böyük əhəmiyyət kəsb etdiyi vurğulanmışdır.

### Yaxın 17 ildə Bakı Metropoliteni şəhər əhalisinə nə vəd edir?

Bakı metropoliteninin rəisi Tağı Əhmədovun verdiyi məlumata görə yaxın illərdə Metropolitenin üçüncü xəttində 3 stansiyanın açılması nəzərdə tutulur. Gələn il "Avtovağzal" və "Memar Əcəmi-2" stansiyaları istifadəyə veriləcəkdir.

Ümumiyyətlə, 2030-cu ilədək Bakı Metropolitenində 73 stansiya və ümumi uzunluğu 119 kilometr olan tunellərin istifadəyə verilməsi nəzərdə tutulur. Bu, Bakı sərnişinlərinin gediş-gəlişini xeyli yaxşılaşdıracaq və vaxtına qənaət edəcəkdir.

**Səhifənin materiallarını çapa Nadir ATAKİŞİYEV hazırlamışdır.**